*2018/2019-cu tədris ilinin qış imtahan sessiyasının yekunları haqqında*

**Hörmətli Sədr!**

**Hörmətli Elmi Şura üzvləri!**

2018/2019-cu tədris ilinin qış imtahan sessiyasının yekunlarını sizə təqdim edirəm.

Qış imtahan sessiyasının təşkili və keçirilməsi haqqında UNEC rektoru tərəfindən 14 dekabr 2018-ci il tarixli, 248/1/2018 nömrəli əmr imzalanmışdır.

Əmr həm bakalavr, həm də magistratura təhsil pilləsini əhatə etmişdir. Əmrdə imtahan sessiyasında bakalavr təhsil pilləsində "SABAH" qruplarının, Beynəlxalq İqtisadiyyat məktəbinin, Türk Dünyası İqtisad Fakültəsinin tələbələrinin, UNEC Biznes Məktəbi və Magistratura Mərkəzinin I və II kurs magistrlarının yazılı formada (humanitar fənlər isə test formasında); bakalavr pilləsinin I, II, III, IV kurs tələbələrinin isə test üsulu ilə imtahan vermələri tapşıprılmışdır.

Müvafiq fakültələrdə "İqtisadiyyata giriş", "Makroiqtisadiyyat", "İnformasiya texnologiyaları", "İdarəetmə sistemləri", "Standartlaşdırmanın əsasları", "İstehlak mallarının ekspertizasının nəzəri əsasları", "Mikrobiologiya, sanitariya və gigiyena" fənləri yazılı formada, Marketinq və Mühasibat fənləri isə yenilənmiş vahid sillabus əsasında test suallarının məxfi saxlanılması şərti ilə keçirilməsi tapşırılmışdır.

Bu imtahan sessiyasının əvvəlkilərdən fərqi həm də ondan ibarət idi ki, imtahanların təşkili və nəzarətin həyata keçirilməsi fakültələrə həvalə edilmişdir.

İlk növbədə UNEC-də imtahan sessiyasının əməliyyat miqyasını nümayiş etdirmək üçün bəzi məlumatları diqqətinizə çatdırmaq istəyirəm. Sessiyada ümumilikdə bakalavr təhsil pilləsi üzrə 11746 tələbə və 2280 magistrant iştirak etmişdir, universitet üzrə 3992 imtahan təşkil edilmişdir, 1526 imtahan yazılı qaydada 2466 imtahan isə test üsulu ilə keçirilmişdir. Bununla belə UNEC üzrə 38% imtahan yazılı qaydada, 62% imtahan isə test üsulu ilə keçirilmişdir. Sessiyanın bir günü ərzində 3860 tələbə üçün imtahan təşkil edilib. Universitet tərəfindən 313629 test və 42650 yazılı imtahan sualı təqdim edilmişdir.

İndi isə bakalavr pilləsində fakültələr üzrə nəticələri və bu nəticələrin əvvəlki illərin nəticələri ilə müqayisəsini diqqətinizə çatdırmaq istəyirəm (cədvəl 1).

**Cədvəl 1**

**2018/2019-cu tədris ilinin qış imtahan sessiyasında bakalavr pilləsinin fakültələr üzrə nəticələri**

| № | Fakültələrin adı | Tələbələrin ümumi sayı | İmtahanda iştirak edən tələbələrin sayı | İmtahanı müvəffəqiyyətlə başa vurmuşlar | | | | Akademik borcu qalan tələbələrin sayı | | | | İştirak etməyənlər | | Müvəffəqiyyət faizi | Keyfiyyət faizi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | CƏMİ | ƏLA (A) | Əla və yaxşı (A,B,C) | Qarışıq qiymətlər(A,B,C,D,E) | CƏMİ | BİR | İKİ | Üç və üçdən artıq | Üzürlü | üzürsüz | | |
| 1 | **Maliyyə və mühasibat** | 1757 | 1748 | 1449 | 199 | 564 | 686 | 299 | 219 | 45 | 35 | 2 | 7 | 82% | 43% |
| 2 | **İqtisadiyyat** | 2410 | 2401 | 1970 | 205 | 669 | 1096 | 431 | 303 | 83 | 45 | 0 | 9 | 82% | 36% |
| 3 | **Biznes və menecment** | 1564 | 1559 | 1243 | 124 | 438 | 681 | 316 | 221 | 68 | 27 | 0 | 5 | 79% | 35% |
| 4 | **Rus iqtisad məktəbi** | 1818 | 1804 | 1465 | 69 | 592 | 804 | 339 | 199 | 89 | 51 | 0 | 14 | 81% | 36% |
| 5 | **Türk dünyası İqtisad** | 693 | 684 | 411 | 21 | 119 | 271 | 273 | 134 | 77 | 62 | 1 | 8 | 59% | 20% |
| 6 | **Ekspertiza və standart-laşdırma** | 881 | 881 | 741 | 120 | 308 | 313 | 140 | 106 | 26 | 8 | 0 | 0 | 84% | 49% |
| 7 | **Texnologiya və dizayn** | 1335 | 1329 | 1100 | 174 | 389 | 537 | 229 | 148 | 60 | 21 | 0 | 6 | 82% | 42% |
| 8 | **"SABAH" mərkəzi** | 674 | 674 | 630 | 149 | 323 | 158 | 44 | 33 | 10 | 1 | 0 | 0 | 94% | 70% |
| 9 | **Beynəlxalq İqtisadiyyat Məktəbi** | 673 | 666 | 638 | 212 | 274 | 152 | 28 | 25 | 3 | 0 | 1 | 6 | 95% | 72% |
| | ***CƏMİ:*** | ***11805*** | ***11746*** | ***9647*** | ***1273*** | ***3676*** | ***4698*** | ***2099*** | ***1388*** | ***461*** | ***250*** | ***4*** | ***55*** | ***82%*** | ***42%*** |

Cədvəl 1-dən göründüyü kimi fakültələr üzrə müvəffəqiyyət göstəricisi **59-95%** arasında olmuşdur. Bu göstərici ən yüksək Beynəlxalq iqtisadiyyat məktəbi üzrə **- 95%,** ən aşağı isə «Türk dünyası iqtisad» fakültəsində **- 59%** olmuşdur. Universitet üzrə isə müvəffəqiyyət göstəricisi **82%** təşkil etmişdir.

Cədvəl 2-də qış-imtahan sessiyasının nəticələrinin əvvəlki illərin qış imtahan sessiyasının nəticələri ilə müqayisəsi verilmişdir.

**Cədvəl 2**

**Qış-imtahan sessiyası nəticələrinin əvvəlki illərlə müqayisəsi**

| Qış imtahan sessiyaları | Bakalavrların ümumi sayı | Əla qiymət alan tələbələrin sayı | Akademik borcu qalan tələbələrin sayı | Sessiyada iştirak etməyən tələbələrin sayı | Müvəffəqiyyət faizi | Keyfiyyət faizi |
|---|---|---|---|---|---|---|
| 2013/2014 | 11353 | 188 | 3820 | 133 | 65% | 14% |
| 2014/2015 | 11695 | 635 | 1676 | 136 | 85% | 40% |
| 2015/2016 | 11980 | 382 | 1905 | 103 | 83% | 31% |
| 2016/2017 | 11837 | 720 | 1946 | 159 | 82% | 38% |
| 2017/2018 | 11669 | 1247 | 1561 | 129 | 86% | 45% |
| 2018/2019 | 11805 | 1273 | 2099 | 59 | 82% | 42% |

İmtahan sessiyası nəticələrini daha əyani şəkildə göstərmək üçün diaqramlara müraciət edək. Diaqram 1-də müvafiq tədris illərində bakalavrların ümumi sayı göstərilmişdir:

**Diaqram 1**




Diaqramdan göründüyü kimi, 2013/2014-cü tədris ilində bakalavr pilləsində tələbələrin ümumi sayı **11353** nəfər, 2018/2019-cu tədris ilində isə **11805** nəfər olmuşdur.

Diaqram 2-də əla qiymət alan tələbələrin müvafiq sessiyalardakı sayı verilmişdir:

**Diaqram 2**



Cədvəl və diaqramdan göründüyü kimi UNEC üzrə 2018/2019-cu tədris ilində 2013/2014-cü tədris ilinin qış imtahan sessiyası ilə müqayisədə əla qiymət alan tələbələrin sayında 188-dən 1273-ə kimi böyük artım baş vermişdir; son iki ildə isə, yəni 2017/2018-ci və 2018/19-cı tədris illərinin qış imtahan sessiyalarında bu göstərici demək olar ki stabilləşmişdir.

Akademik borcu qalan tələbələrin sayı 3-cü diaqramda verilmişdir:

**Diaqram 3**




Bu diaqramdan göründüyü kimi cari tədris ilinin qış imtahan sessiyasında akademik borcu qalan tələbələrin sayı 2013/2014-cü tədris ilinin qış imtahan sessiyası ilə müqayisədə kəskin azalmış, son dörd tədris illərinin qış imtahan sessiyaları ilə müqayisədə isə artaraq **2099** nəfər olmuşdur.

Diaqram 4-də bu iki göstərici bir qrafikdə verilmişdir. Qrafiklərdən göründüyü kimi UNEC-də illər üzrə əla qiymət alan tələbələrin sayının artması və bununla bərabər akademik borcu qalan tələbələrin sayının azalması da baş vermişdir və bu artıq trend formasını almışdır.

**Diaqram 4**




İmtahanlarda iştirak etməyən tələbələrin sayı Diaqram 5-də əyani şəkildə göstərilmişdir:

**Diaqram 5**




Diaqramdan göründüyü kimi 2018/2019-cu il qış imtahan sessiyasında 59 tələbə iştirak etməmişdir. Beləliklə əvvəlki beş tədris ilinin qış imtahan sessiyaları ilə müqayisədə imtahanlarda iştirak etməyən tələbələrin sayı 2 dəfədən çox azalmışdır.

Universitet üzrə müvəffəqiyyət göstəricisinin dinamikası Diaqram 6-da göstərilmişdir:

**Diaqram 6**




Bu diaqramdan göründüyü kimi müvəffəqiyyət göstəricisi 2018/2019-cu tədris ilində 2013/2014-cü tədris ilinin qış imtahan sessiyası ilə müqayisədə daha yüksək, 2017/2018-ci tədris ili ilə müqaisədə isə azalaraq **82%** təşkil etmişdir. Ümumiyyətlə bu göstərici **86%** olaraq ən yüksək **2017/2018-ci** tədris ilinində olmuşdur.

Keyfiyyət göstəricisinin dinamikasına da nəzər yetirək:

**Diaqram 7**




7-ci diaqramdan göründüyü kimi keyfiyyət göstəricisi cari tədris ilinin qış imtahan sessiyasında 2013/2014-cü, 2014/2015-ci, 2015/2016-cı, 2016/2017-ci tədris illərinin qış imtahan sessiyaları ilə müqayisədə daha yüksək, 2017/2018-ci tədris ilinin qış imtahan sessiyası ilə müqayisədə isə azalaraq 42% təşkil etmişdir.

Cədvəl və diaqramlardan aydın göründüyü kimi, 2017/2018-cı tədris ili ilə müqayisədə 2018/2019-cu tədris ilində sessiyanı əlaçı olaraq başa vuranların və akademik borcu qalanların sayında artım, müvəffəqiyyət və keyfiyyət göstəricilərində isə azalma qeydə alınmışdır.

Akademik borcu qalan tələbələrin sayının artmasına əsas səbəblərdən biri kimi birinci kursların göstəricilərinin aşağı olmasını qeyd etmək olar. Fikrimizcə, fakültələr tərəfindən birinci kursların universitet həyatına və akademik prosesə inteqrasiyasına diqqətin artırılmasına ehtiyac vardır.

Kurslar üzrə imtahan sessiyasının nəticələrinə nəzər yetirək (cədvəl 3).

**Cədvəl 3**

**Bakalavr pilləsində kurslar üzrə qış imtahan sessiyasının nəticələri**

| № | KURSLAR | Tələbələrin ümumi sayı | İmtahanda iştirak edən tələbələrin sayı | İmtahanı müvəffəqiyyətlə başa vurmuşlar | | | | Akademik borcu qalan tələbələrin sayı | | | | İştirak etməyənlər | | Müvəffəqiyyət faizi | Keyfiyyət faizi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | CƏMİ | ƏLA (A) | əla və yaxşı (A,B,C) | Qarışıq qiymətlər(A,B,C,D,E) | CƏMİ | BİR | İKİ | Üç və üçdən artıq | Üzürlü | Üzürsüz | | |
| **1** | **I** | 3020 | 3016 | 2211 | 202 | 816 | 1193 | 805 | 547 | 183 | 75 | 1 | 3 | 73% | 34% |
| **2** | **II** | 3007 | 2992 | 2326 | 200 | 922 | 1204 | 666 | 452 | 154 | 60 | 2 | 13 | 77% | 37% |
| **3** | **III** | 2988 | 2974 | 2583 | 501 | 957 | 1125 | 391 | 238 | 86 | 67 | 0 | 14 | 86% | 49% |
| **4** | **IV** | 2790 | 2764 | 2527 | 370 | 981 | 1176 | 237 | 151 | 38 | 48 | 1 | 25 | 91% | 48% |
| | ***CƏMİ:*** | ***11805*** | ***11746*** | ***9647*** | ***1273*** | ***3676*** | ***4698*** | ***2099*** | ***1388*** | ***461*** | ***250*** | ***4*** | ***55*** | ***82%*** | ***42%*** |

Cədvəl 3-dən göründüyü kimi imtahanlarda I kurs üzrə **3016** nəfər iştirak etmişdir. Onlardan **202** tələbə əla, **816** tələbə əla, çox yaxşı və yaxşı, **1193** tələbə qarışıq və **805** tələbə qeyri-kafi qiymət almışdır, **4** nəfər tələbə imtahanlarda iştirak etməmişdir. Müvəffəqiyyət göstəricisi 73% olmuşdur.

II kurs üzrə imtahanlarda **2992** nəfər tələbə iştirak etmişdir. Onlardan **200** nəfəri əla, **922** nəfəri əla, çox yaxşı və yaxşı, **1204** nəfəri qarışıq və **666** nəfəri qeyri-kafi qiymət almışdır, **15** nəfər tələbə imtahanlarda iştirak etməmişdir. Müvəffəqiyyət göstəricisi 77% təşkil etmişdir.

III kursda **2974** tələbə imtahanlarda iştirak etmiş, onlardan **501** nəfəri əla, **957** nəfəri əla, çox yaxşı və yaxşı, **1125** nəfəri qarışıq qiymət almışdır, **391** nəfər sessiyanı akademik borcla başa vurmuş, **14** nəfər tələbə isə imtahanlarda iştirak etməmişdir. Müvəffəqiyyət göstəricisi **86%** təşkil etmişdir.

IV kursda **2764** tələbə imtahanlarda iştirak etmiş, onlardan **370** nəfəri əla, **981** nəfəri əla, çox yaxşı və yaxşi, **1176** nəfəri qarışıq qiymət almış, **237** nəfər isə sessiyanı akademik borcla başa vurmuşdur, **26** nəfər imtahanlarda iştirak etməmişdir. Müvəffəqiyyət göstəricisi **91%** təşkil etmişdir.

Göründüyü kimi ən aşağı müvəffəqiyyət göstəricisi I kursda (73%), ən yüksək müvəffəqiyyət göstəricisi isə IV kursda (91%) olmuşdur. Əla qiymət alanlar üzrə ən aşağı göstərici II kursda (cəmi 200 nəfər), ən yuxarı göstərici isə III kursda (501 nəfər) olmuşdur.

Əla, çox yaxşı və yaxşı qiymət alanlar üzrə ən aşağı göstərici I kursda (816 nəfər), ən yuxarı göstərici isə IV kursda (981 nəfər) olmuşdur. Ən çox akademik borcu olan tələbələrin sayı I kursda (805 nəfər), ən az akademik borcu olan tələbələrin sayı isə IV kursda (237 nəfər) qeydə alınmışdır. Bir sözlə, statistik müqayisə birinci kurslara diqqətin artırılmasına ehtiyacın olduğu haqqda öncə deyilənləri bir daha təsdiqləyir.

Yazılı qaydada və test üsulu ilə imtahanlarda iştirak edən bakalavrların imtahan nəticələrini ayrılıqda nəzərdən keçirək.

Çıxışın əvvəlində qeyd etdiyimiz kimi, bakalavr pilləsində Beynəlxalq İqtisadiyyat Məktəbi, SABAH Mərkəzi və Türk Dünyası İqtisad Fakültəsində imtahan yazılı qaydada keçirilmişdir. 2018/2019-cu tədris ilinin qış imtahan sessiyasında yazılı qaydada keçirilən imtahanlarda iştirak edən tələbələrin nəticələri haqqında məlumat cədvəl 4-də verilmişdir.

**Cədvəl 4**

**Qış imtahan sessiyasının yazılı qaydada keçirilən imtahanların nəticələri**

| № | FAKÜLTƏLƏR | Tələbələrin ümumi sayı | İmtahanda iştirak erməyən tələbələrin sayı | İmtahanı müvəffəqiyyətlə başa vurmuşlar | | | | Akademik borcu qalan tələbələrin sayı | | | | İştirak etməyənlər | | Müvəffəqiyyət faizi | Keyfiyyət faizi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | CƏMİ | ƏLA (A) | Əla və yaxşı (A,B,C) | Qarışıq qiymətlər (A-E) | CƏMİ | BİR | İKİ | Üç və üçdən artıq | Üzürlü | Üzürsüz | | |
| 1 | “SABAH” mərkəzi | 674 | 674 | 630 | 149 | 323 | 158 | 44 | 33 | 10 | 1 | - | - | 94% | 70% |
| 2 | Beynəlxalq iqtisadiyyat məktəbi | 673 | 666 | 638 | 212 | 274 | 152 | 28 | 25 | 3 | 0 | 1 | 6 | 95% | 72% |
| 3 | Türk dünyası iqtisad fakültəsi | 693 | 684 | 411 | 21 | 119 | 271 | 273 | 134 | 77 | 62 | 1 | 8 | 59% | 20% |
| | ***CƏMİ:*** | ***2040*** | ***2024*** | ***1679*** | ***382*** | ***716*** | ***581*** | ***345*** | ***192*** | ***90*** | ***63*** | ***2*** | ***14*** | ***82%*** | ***54%*** |

Yazılı imtahanlarda müvəffəqiyyət göstəricisi Beynəlxalq İqtisadiyyat Məktəbində **95%,** SABAH Mərkəzində **94%,** TUDİFAK-da **59%** təşkil etmişdir. Keyfiyyət göstəricisi Beynəlxalq İqtisadiyyat Məktəbində **72**%, SABAH Mərkəzində **70%,** TUDİFAK-da isə **20%** olmuşdur.

Test üsulu ilə imtahan verən bakalavrların imtahan nəticələrini də nəzərdən keçirək:

**Cədvəl 5**

**Bakalavr pilləsində qış imtahan sessiyasının test üsulu ilə keçirilən imtahanların nəticələri**

| № | FAKÜLTƏLƏR | Tələbələrin ümumi sayı | İmtahanda iştirak edən tələbələrin sayı | İmtahanı müvəffəqiyyətlə başa vurmuşlar | | | | Akademik borcu qalan tələbələrin sayı | | | | İştirak etməyənlər | | Müvəffəqiyyət faizi | Keyfiyyət faizi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | CƏMİ | ƏLA (A) | Əla və yaxşı (A,B,C) | Qarışıq qiymətlər (A,B,C,D,E) | CƏMİ | BİR | İKİ | Üç və üçdən artıq | Üzürlü | Üzürsüz | | |
| 1 | Maliyyə və mühasibat | 1757 | 1748 | 1449 | 199 | 564 | 686 | 299 | 219 | 45 | 35 | 2 | 7 | 82% | 43% |
| 2 | İqtisadiyyat | 2410 | 2401 | 1970 | 205 | 669 | 1096 | 431 | 303 | 83 | 45 | 0 | 9 | 82% | 36% |
| 3 | Biznes və menecment | 1564 | 1559 | 1243 | 124 | 438 | 681 | 316 | 221 | 68 | 27 | - | 5 | 79% | 35% |
| 4 | Rus dilində tədris mərkəzi | 1818 | 1804 | 1465 | 69 | 592 | 804 | 339 | 199 | 89 | 51 | - | 14 | 81% | 36% |
| 5 | Ekspertiza və standartlaşdırma | 881 | 881 | 741 | 120 | 308 | 313 | 140 | 106 | 26 | 8 | - | - | 84% | 49% |
| 6 | Texnologiya və dizayn | 1335 | 1329 | 1100 | 174 | 389 | 537 | 229 | 148 | 60 | 21 | - | 6 | 82% | 42% |
| | ***CƏMİ:*** | ***9765*** | ***9722*** | ***7968*** | ***891*** | ***2960*** | ***4117*** | ***1754*** | ***1196*** | ***371*** | ***187*** | ***2*** | ***41*** | ***82%*** | ***39%*** |

Cədvəldən göründüyü kimi bakalavr pilləsində test üsulu ilə keçirilən imtahanlarda ən yüksək müvəffəqiyyət və keyfiyyət göstəricisi Ekspertiza və standartlaşdırma fakültəsində (müvəffəqiyyət 84%), keyfiyyət isə (49%) qeydə alınmışdır. Ən aşağı müvəffəqiyyət göstəricisi (79%), ən aşağı keyfiyyət göstəricisi də (35%), Biznes və menecment fakültəsində olmuşdur. Ümumilikdə test üsulu ilə imtahan verən tələbələrin müvəffəqiyyət göstəricisi 82%, keyfiyyət göstəricisi isə 39% təşkil etmişdir.

Beləliklə yazılı qaydada və test üsulu ilə keçirilən imtahanlar üzrə müvəffəqiyyət göstəricisi eyni 82%, keyfiyyət göstəriciləri isə müvafiq olaraq 54% və 39% təşkil etmişdir. Keyfiyyət göstəricisində fərqin səbəblərindən biri kimi yazılı qaydada imtahan keçirən fakültələrdə daha çox sayda yüksək balla universitetə daxil olmuş tələbələrin olmasını göstərmək olar.

Qış imtahan sessiyasının nəticələrini təhlil edərkən I kurslar üzrə 600-dən yuxarı bal toplayaraq UNEC-ə daxil olmuş tələbələrin imtahan nəticələri də araşdırılmışdır. Növbəti cədvəldə bu tələbələrin imtahanlarının nəticələri verilmişdir (Cədvəl 6).

**Cədvəl 6**

**Qış imtahan sessiyasında 600-dən çox bal toplayaraq ali məktəblərə qəbul olunmuş I kurs tələbələrinin göstəriciləri**

| Tələbələrin sayı | | | İmtahanları müvəffəqiyyətlə verənlər | | | | Akademik borcu qalanlar (F) | | | | İmtahanda iştirak etməyənlər | Müvəffəqiyyət göstəricisi | Keyfiyyət göstəricisi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| CƏMİ | | İmtahan-da iştirak edənlər | CƏMİ | O cümlədən: ƏLA (A) | Əla, cox yaxşı, yaxşı (A,B,C) | Qarışıq (A,B,C,D,E) | CƏMİ | O cümlədən: 1 fəndən | 2 fəndən | 3 və daha çox fəndən | | | |
| Maliyyə və mühasibat uçotu | 124 | 124 | 120 | 45 | 66 | 9 | 4 | 4 | - | - | - | 96% | 90% |
| İqtisadiyyat | 19 | 19 | 19 | 3 | 13 | 3 | - | - | - | - | - | 100% | 84% |
| Rus iqtisad məktəbi | 9 | 9 | 9 | 3 | 2 | 4 | - | - | - | - | - | 100% | 56% |
| Biznes və menecment | 8 | 8 | 8 | 6 | 2 | - | - | - | - | - | - | 100% | 100% |
| Beynəlxalq iqtisadiyyat məktəbi | 177 | 177 | 176 | 77 | 64 | 35 | 1 | 0 | 1 | | | 99% | 80% |
| Türk dünyası iqtisad | 8 | 8 | 6 | 1 | 3 | 2 | 2 | 2 | - | - | - | 75% | 50% |
| Texnologiya və dizayn | 1 | 1 | 1 | - | 1 | - | - | - | - | - | - | 100% | 100% |
| ***CƏMİ:*** | ***346*** | ***346*** | ***339*** | ***135*** | ***151*** | ***53*** | ***7*** | ***6*** | ***1*** | - | - | ***98%*** | ***83%*** |

Cədvəldən göründüyü kimi 346 nəfər 600+ ballı tələbənin hamısı sessiyada iştirak etmiş, 6 nəfərin 1 fəndən, 1 nəfərin isə 2 fəndən akademik borcu qalmışdır. İmtahan sessiyasında iştirak edən 346 nəfərdən 339 nəfəri imtahanları müvəffəqiyyətlə vermiş, onlardan 135 nəfəri imtahanları əla qiymətlərlə başa vurmuş, 151 nəfəri əla və yaxşı, 53 nəfəri isə qarışıq qiymətlər almışdır. Müvəffəqiyyət göstəricisi 98%, keyfiyyət göstəricisi isə 83% olmuşdur.

Universitet üzrə Prezident təqaüdçülərinin qış imtahan sessiyası nəticələri ayrıca cədvəldə verilmişdir (cədvəl 7).

**Cədvəl 7**

## Qış imtahan sessiyasında Prezident təqaüdçülərinin nəticələri haqqında məlumat

| № | KURSLAR | Tələbələrin ümumi sayı | İmtahanda iştirak edən tələbələrin sayı | İmtahanı müvəffəqiyyətlə başa vuranlar | | | | Akademik borcu qalan tələbələrin sayı | | | | İştirak etməyənlər | Müvəffəqiyyət faizi | Keyfiyyət faizi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | CƏMİ: | ƏLA(A) | Əla,çox yaxşı,yaxşı (ABC) | Qarışıq qiymətl alanlar (A-E) | CƏMİ | BİR | İKİ | Üç və üçdən artıq | | | |
| 1 | I | 17 | 17 | 17 | 17 | | | | | | | | **100%** | **100%** |
| 2 | II | 13 | 13 | 13 | 13 | | | | | | | | **100%** | **100%** |
| 3 | III | 4 | 4 | 4 | 4 | | | | | | | | **100%** | **100%** |
| ***C Ə M İ :*** | | ***34*** | ***34*** | ***34*** | ***34*** | | | | | | | | **100%** | **100%** |

Göründüyü kimi qış imtahan sessiyasında iştirak edən **34** nəfər Prezident təqaüdçüsündən **34-ü** də bu adı özündə saxlaya bilmişdir.

Bunlardan əlavə olaraq bakalavr pilləsi üzrə bölmələrə görə nəticələrə nəzər yetirək:

## Bölmələr üzrə qış imtahan sessiyasının nəticələri haqqında məlumat

| № | BÖLMƏ | Tələbələrin ümumi sayı | İmtahanda iştirak edən tələbələrin sayı | İmtahanı müvəffəqiyyətlə başa vurmuşlar | | | | Akademik borcu qalan tələbələrin sayı | | | | İştirak etməyənlər | | Mənimsəmə faizi | Keyfiyyət faizi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | CƏMİ | ƏLA (A) | Əla və yaxşı (A,B,C) | Qarışıq qiymətlər (A,B,C,D,E | CƏMİ | BİR | İKİ | Üç və üçdən artıq | Üzürlü | Üzürsüz | | |
| **1** | **Azərbaycan bölməsi** | 7945 | 7917 | 6583 | 888 | 2469 | 3226 | 1334 | 949 | 257 | 128 | 2 | 26 | 83% | 42% |
| **2** | **Türk bölməsi** | 693 | 684 | 411 | 21 | 119 | 271 | 273 | 134 | 77 | 62 | 1 | 8 | 59% | 20% |
| **3** | **Rus bölməsi** | 2278 | 2263 | 1815 | 113 | 705 | 997 | 448 | 270 | 118 | 60 | - | 15 | 80% | 36% |
| **4** | **İngilis bölməsi** | 889 | 882 | 838 | 251 | 383 | 204 | 44 | 35 | 9 | - | 1 | 6 | 94% | 71% |
| | ***CƏMİ:*** | ***11805*** | ***11746*** | ***9647*** | ***1273*** | ***3676*** | ***4698*** | ***2099*** | ***1388*** | ***461*** | ***250*** | ***4*** | ***55*** | ***82%*** | ***42%*** |

Cədvəldən göründüyü kimi ən yüksək mənimsəmə və keyfiyyət göstəriciləri İngilis bölməsi üzrə **(94% və 71%)** olmuşdur. Ən aşağı mənimsəmə və keyfiyyət göstəriciləri isə Türk dili bölməsində **(59% və 20%)** olmuşdur.

Qeyd edildiyi kimi qış imtahan sessiyasında bir sıra fənlərdən imtahanlar vahid sillabus əsasında yazılı formada, iki fənn üzrə isə sualların məxfiliyi təmin edilməklə test usulu ilə təşkil edilmişdir. Bu fənlər üzrə nəticələr cədvəldə göstərildiyi kimi olmuşdur.

| | **Makroiqtisadiyyat** | | **Mühasibat uçotu** | | **Marketinq** | |
|---|---|---|---|---|---|---|
| | Müvəffəqiyyət göstəricisi | Keyfiyyət göstəricisi | Müvəffəqiyyət göstəricisi | Keyfiyyət göstəricisi | Müvəffəqiyyət göstəricisi | Keyfiyyət göstəricisi |
| Biznes və menecment | 83% | 42% | 89% | 18% | 100% | 66% |
| İqtisadiyyat | 91% | 41% | 92% | 25% | 97% | 59% |
| RİM | 80% | 28% | 92% | 16% | 95% | 58% |
| Maliyyə və mühasibat | 84% | 43% | 93% | 56% | 95% | 57% |
| SABAH | 100% | 49% | | | | |
| İSE | 97% | 80% | | | | |
| **UNEC** | **87%** | **46%** | **92%** | **26%** | **96%** | **59%** |

Makroiqtisadiyyat fənni üzrə bu fənnin imtahanını ilk dəfə yazılı formada keçirən fakültələr arasında ən yüksək müvəffəqiyyət göstəricisi İqtisadiyyat (91%), ən yüksək keyfiyyət göstəricisi isə Maliyyə və mühasibat fakültəsində (43%) olmuşdur. Mühasibat üçotu fənni üzrə hər iki göstərici ən yüksək Maliyyə və mühasibat fakültəsində olmuşdur (93% və 56%). Marketinq fənni üzrə hər iki göstərici ən yüksək Biznes və menecment fakültəsində olmuşdur (100% və 66%). Qeyd etmək istərdim ki, bu fənlər üzrə nəticələr UNEC üzrə ümumi sessiya göstəricilərindən, Muhasibat uçotu fənninin keyfiyyət göstəricisi istisna olmaqla, daha yüksək olmuşdur.

Texniki və texnoloji ixtisaslar üzrə yazılı imtahanların göstəriciləri növbəti cədvəldə göstərildiyi kimi olmuşdur.

| | Standartlaşdırmanın əsasları | İdarəetmə sistemləri | İnformasiya texnologiyalarına giriş | Mikrobiologiya, sanitariya və gigiyena | İstehlak mallarının ekspertizasının nəzəri əsasları |
|---|---|---|---|---|---|
| Müvəffəqiyyət göstəricisi | 57% | 92% | 97% | 92% | 80% |
| Keyfiyyət göstəricisi | 22% | 11% | 48% | 49% | 47% |

Bu fənlər üzrə ən aşağı göstəricilər Standartlaşdırmanın əsasları fənni üzrə qeydə alınmışdır. Belə ki, bu fənn üzrə Müvəffəqiyyət göstəricisi 57%, Keyfiyyət göstəricisi isə 22% olmuşdur.

Hörmətli Elmi Şura üzvləri!

Magistraturada da imtahan sessiyasının nəticələrini təqdim edirəm (cədvəl 8).

**Cədvəl 8**

**Qış imtahan sessiyasının magistr pilləsi üzrə nəticələri haqqında məlumat**

| | **İmtahanı müvəffəqiyyətlə başa vurmuşlar** | **Akademik borcu qalan tələbələrin sayı** | **İmtahanı müvəffəqiyyətlə başa vurmuşlar** | | | | **Akademik borcu qalan tələbələrin sayı** | | | | **İştirak etməyənlər** | | **Mənimsəmə faizi** | **Keyfiyyət faizi** |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | **CƏMİ** | **ƏLA (A)** | **Əla və yaxşı (A,B,C)** | **Qarışıq qiymətlər** | **CƏMİ** | **BİR** | **İKİ** | **Üç və üçdən** | **Üzürlü** | **Üzürsüz** | | |
| **BMDM** | 486 | 477 | 389 | 35 | 147 | 207 | 88 | 55 | 19 | 14 | - | 9 | 80% | 37% |
| **MM** | 301 | 298 | 281 | 58 | 142 | 81 | 17 | 16 | 1 | - | - | 3 | *93%* | *66%* |
| **MBA** | 1562 | 1505 | 1263 | 70 | 383 | 810 | 242 | 165 | 46 | 31 | 29 | 28 | 81% | 29% |
| ***CƏMİ:*** | ***2349*** | ***2280*** | ***1933*** | ***163*** | ***672*** | ***1098*** | ***347*** | ***236*** | ***66*** | ***45*** | ***29*** | ***40*** | ***82%*** | ***36%*** |

2018/2019-cu tədris ilinin qış imtahan sessiyas Magistratura pilləsi üzrə həm test, həm də yazılı üsülla keçirilmişdir. İxtisas fənləri yazılı, “Humanitar” fənlər üzrə imtahanlar isə test üsulu ilə keçirilmlşdir.

Cədvəldən göründüyü kimi 2349 magistrdan 2280 nəfəri imtahanlarda iştirak etmiş, onlardan 1933 nəfəri imtahanları müvəffəqiyyətlə başa vurmuşdur. 163 nəfəri ancaq əla; 672

nəfəri əla və yaxşı qiymətlər almışdır. 347 nəfər sessiyanı akademik borcla başa vurmuş, 69 nəfəri isə imtahanlarda iştirak etməmişdir. Müvəffəqiyyət göstəricisi 82%, keyfiyyət göstəricisi isə 36% olmuşdur.

Magistratura pilləsi üzrə bölmələrə görə nəticələrə nəzər salaq:

**Cədvəl 9**

**2018/2019-cu tədris ilində magistr pilləsi üzrə qış imtahan sessiyasının nəticələri haqqında məlumat *(bölmələr üzrə)***

| Bölmə | İmtahanı müvəffəqiyyətlə başa vurmuşlar | Akademik borcu qalan tələbələrin sayı | İmtahanı müvəffəqiyyətlə başa vurmuşlar | | | | Akademik borcu qalan tələbələrin sayı | | | | İştirak etməyənlər | | Müvəffəqiyyət faizi | Keyfiyyət faizi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | CƏMİ | ƏLA (A) | Əla və yaxşı (A,B,C) | Qarışıq qiymətlər (A,B,C,D,E) | CƏMİ | BİR | İKİ | Üç və üçdən artıq | Üzürlü | Üzürsüz | | |
| **Azərbaycan bölməsi** | 1565 | 1534 | 1341 | 115 | 519 | 707 | 193 | 144 | 25 | 24 | 14 | 17 | 86% | 41% |
| **Türk bölməsi** | 31 | 31 | 21 | 4 | 6 | 11 | 10 | 8 | 2 | 0 | 0 | 0 | 68% | 32% |
| **Rus bölməsi** | 252 | 240 | 197 | 19 | 53 | 125 | 43 | 23 | 13 | 7 | 5 | 7 | 78% | 29% |
| **İngilis bölməsi** | 501 | 475 | 374 | 25 | 94 | 255 | 101 | 61 | 26 | 14 | 10 | 16 | 75% | 24% |
| ***CƏMİ:*** | ***2349*** | ***2280*** | ***1933*** | ***163*** | ***672*** | ***1098*** | ***347*** | ***236*** | ***66*** | ***45*** | ***29*** | ***40*** | ***82%*** | ***36%*** |

Cədvəldən göründüyü kimi ən yüksək müvəffəqiyyət (86%) və keyfiyyət (41%) göstəriciləri Azərbaycan bölməsi üzrə qeydə alınmışdır. Ən aşağı müvəffəqiyyət göstəricisi Türk bölməsində (68%), ən aşağı keyfiyyət faizi isə İngilis bölməsində (24%) olmuşdur.

Qeyd etmək lazımdır ki, magistratura pilləsində müvəffəqiyyət göstəricisi bakalavr pilləsi ilə eynidir, keyfiyyət göstəricisi isə daha aşağıdır. Bununla bərabər pillələr üzrə azərbaycan bölmələrinin göstəriciləri təxminən eyni, ingilis bölməsinin göstəriciləri isə magistraturada kəskin aşağıdır.

Məlum olduğu kimi UNEC-in strukturunda Zaqatala filialı fəaliyyət göstərir. Filial üzrə qış imtahan sessiyasının nəticələri haqqında məlumatları diqqətinizə çatdırmaq istəyirəm:

**Cədvəl 10**

**Zaqatala filialı qış imtahan sessiyasının nəticələri (I kurs)**

| | Zaqatala filialı | Tələbələrin ümumi sayı | İmtahanda iştirak erməyən tələbələrin sayı | İmtahanı müvəffəqiyyətlə başa vurmuşlar | | | | Akademik borcu qalan tələbələrin sayı | | | | İştirak etməyənlər | | Müvəffəqiyyət faizi | Keyfiyyət faizi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | CƏMİ | ƏLA (A) | Əla və yaxşı (A,B,C) | Qarışıq qiymətlər(A-E) | CƏMİ | BİR | İKİ | Üç və üçdən artıq | Gəlmədi | Buraxılmır | | |
| | ***CƏMİ:*** | ***457*** | ***407*** | ***226*** | ***7*** | ***43*** | ***176*** | ***181*** | ***92*** | ***44*** | ***45*** | ***39*** | ***11*** | ***49%*** | ***11%*** |

Zaqatala filialı üzrə 457 tələbədən 407-si sessiyada iştirak etmiş, 226 nəfər müvəffəq qiymət almış, 7 nəfər əla, 43 nəfər əla və yaxşı qiymətlərlə, 176 nəfər isə qarışıq qiymətlərlə sessiyanı başa vurmuşlar. Akademik borcu qalmış tələbələrin sayı 181 nəfərdir. Müvəffəqiyyət göstəricisi 49%, keyfiyyət göstəricisi isə 11% təşkil edir.

UNEC-in nəzdində olan Maliyyə-İqtisad Kollecində qış imtahan sessiyasının nəticələri haqqında məlumatları da diqqətinizə çatdırmaq istəyirəm.

**Cədvəl 11**

**Maliyyə-İqtisad Kollecində qış imtahan sessiyasının nəticələri**

| Kurslar | Tələbələrin ümumi sayı | Sessiyada iştirak edən tələbələrin sayı | Müvəffəqiyyətlə imtahanları başa vurmuşlar | | | | Akademik borcu qalanların sayı | | | | ÜZÜRLÜ | ÜZÜRSÜZ | Müvəffəqiyyət faizi | Keyfiyyət faizi |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | CƏMİ | ƏLA | Əla,çox yaxşı və yaxşı | Qarşıq qiymətlər | CƏMİ | Bir | İki | Üç və dajha çox | | | | |
| **I ÜOT** | 192 | 186 | 130 | 18 | 42 | 70 | 56 | 21 | 11 | 24 | 0 | 0 | 70% | 31% |
| **II ÜOT** | 167 | 165 | 147 | 21 | 39 | 87 | 18 | 7 | 3 | 8 | 0 | 0 | 89% | 36% |
| **III ÜOT** | 163 | 160 | 145 | 37 | 41 | 67 | 15 | 7 | 6 | 2 | 0 | 0 | 91% | 48% |
| **CƏMİ** | ***522*** | ***511*** | ***422*** | ***76*** | ***122*** | ***224*** | ***89*** | ***35*** | ***20*** | ***34*** | ***0*** | ***0*** | ***81%*** | ***38%*** |
| **I TOT** | 253 | 246 | 181 | 9 | 62 | 110 | 65 | 24 | 13 | 28 | 0 | 0 | 74% | 28% |
| **III TOT** | 256 | 247 | 210 | 29 | 86 | 95 | 37 | 9 | 10 | 18 | 0 | 2 | 84% | 45% |
| **CƏMİ** | ***509*** | ***493*** | ***391*** | ***38*** | ***148*** | ***205*** | ***102*** | ***33*** | ***23*** | ***46*** | ***0*** | ***2*** | ***77%*** | ***37%*** |
| **Ümumi:** | ***1031*** | ***1004*** | ***813*** | ***114*** | ***270*** | ***429*** | ***191*** | ***68*** | ***43*** | ***80*** | ***0*** | ***2*** | ***79%*** | ***37%*** |

Cədvəl 11-dən göründüyü kimi, Maliyyə-İqtisad kollecində 1031 tələbədən 813-ü sessiyanı müvəffəqiyyətlə başa vurmuşdur. Sessiyanı əla qiymətlərlə 114 tələbə başa vurmuş, 270 tələbə əla və yaxşı qiymətlər almışdır. Akademik borcu qalanların sayı 191 nəfər olmuşdur. Müvəffəqiyyət göstəricisi 79%, keyfiyyət göstəricisi isə 37% olmuşdur.

Qış imtahan sessiyasının nəticələri ilə əlaqədar universitetimizdə yaradılmış apelyasiya komissiyasına 3627 ərizə ilə müraciət edilmişdir. Apelyasiya komissiyası bu ərizələri araşdırdıqdan sonra 2268 ərizə üzrə tələbələrin müraciəti əsassız hesab edilmiş və nəticələr dəyişdirilməmişdir. 1359 tələbənin imtahan nəticələrinə bal əlavə olunaraq müsbət düzəlişlər edilmişdir.

Qeyd etmək istərdik ki, apelyasiyaların ən çoxu Beynəlxalq İqtisadiyyat Məktəbində (812) və SABAH qruplarında (630) olmuşdur. Apelyasiyaların sayının ən böyük artımı da bu fakültələrdə qeydə alınmışdır. Universitet üzrə apelysiya muraciətlərinin strukturunun təhlili yazılı imtahan keçirilən fənləri olan kafedralar üzrə apelyasiyaların sayının çox olduğunu göstərir. Belə ki, İqtisadiyyat, İqtisadi Nəzəriyyə kafedraları üzrə də apelyasiyaların sayı müvafiq olaraq 297 və 276 olmuşdur.

2017/2018 tədris ilinin qış imtahan sessiyası ilə müqayisədə universitet üzrə apelyasiyaların sayı 571 apelyasiya və yaxud 19% artmışdır. Apelyasiyaların sayında ən böyük artım SABAH qruplarında (339) qeydə alınmışdır. Bununla bərabər universitet üzrə əsaslı hesab edilmiş apelyasiyaların sayı 40%-dən 37%-ə enmişdir. Faiz etibarilə əsaslı hesab edilmiş apelyasiyaların sayında ən böyük azalma (34%) Fizika və Kimya kafedrası üzrə qeydə alınmışdır.

İllər üzrə apelyasiyaların dinamikası növbəti diaqram və qrafiklərdə verilmişdir.

| | Kafedralar | 2015/2016 tədris ili | | | 2016/2017 tədris ili | | | 2017/2018 tədris ili | | | 2018/2019 tədris ili | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Əsaslı | Əsassız | Yekun | Əsaslı | Əsassız | Yekun | Əsaslı | Əsassız | Yekun | Əsaslı | Əsassız | Yekun |
| 1 | Azərbaycan dili | 123 | 48 | 171 | 1 | 39 | 40 | 15 | 28 | 43 | 1 | 18 | 19 |
| 2 | Beynəlxalq iqtisadiyyat | 196 | 10 | 206 | 139 | 24 | 163 | 13 | 21 | 34 | 17 | 37 | 54 |
| 3 | Beynəlxalq iqtisadiyyat (ingilis dili) | 56 | 49 | 105 | 271 | 197 | 468 | 178 | 351 | 529 | 278 | 534 | 812 |
| 4 | Beynəlxalq münasibətlər | 22 | 7 | 29 | 51 | 17 | 68 | 15 | 9 | 24 | 10 | 3 | 13 |
| 5 | BİM | 10 | 30 | 40 | 24 | 7 | 31 | | | 0 | 1 | 0 | 1 |
| 6 | Biznesin idarə edilməsi | 37 | 53 | 90 | 70 | 74 | 144 | 25 | 18 | 43 | 20 | 33 | 53 |
| 7 | Dizayn | 10 | 7 | 17 | 16 | 6 | 22 | | 5 | 5 | 3 | 8 | 11 |
| 8 | Əməyin iqtisad. və təşkili | 18 | 22 | 40 | 35 | 57 | 92 | 4 | 25 | 29 | 32 | 11 | 43 |
| 9 | Ətraf mühitin mühafizəsi və iqtisadiyyatı | 100 | 96 | 196 | 108 | 103 | 211 | 19 | 31 | 50 | 4 | 23 | 27 |
| 10 | Fizika və kimya | 73 | 25 | 98 | 68 | 43 | 111 | 29 | 24 | 53 | 7 | 27 | 34 |
| 11 | Humanitar fənlər | 53 | 65 | 118 | 60 | 105 | 165 | 9 | 41 | 50 | 4 | 16 | 20 |
| 12 | İqtisadi nəzəriyyə | 50 | 116 | 166 | 12 | 63 | 75 | 24 | 112 | 136 | 83 | 193 | 276 |
| 13 | İqtisadiyyat | | | 0 | | | 0 | 116 | 156 | 272 | 143 | 154 | 297 |
| 14 | İqtisadiyyat və idarəetmə | | | 0 | | | 0 | | | | 3 | 60 | 63 |
| 15 | İqtisadiyyat və işlətmə | | | 0 | | | 0 | | | | | 1 | 1 |
| 16 | İqtisadiyyat və biznesin idarə edilməsi | | | 0 | 1 | | 1 | | | | | 7 | 7 |
| 17 | İqtisadiyyatın tənzimlənməsi | 64 | 40 | 104 | 84 | 81 | 165 | 16 | 53 | 69 | 9 | 31 | 40 |
| 18 | İstehlak mallarının ekspertizası | 73 | 23 | 96 | 76 | 34 | 110 | 75 | 38 | 113 | 96 | 29 | 125 |
| 19 | Maliyyə və maliyyə institutları | 206 | 98 | 304 | 172 | 164 | 336 | 65 | 84 | 149 | 32 | 36 | 68 |
| 20 | Menecment | 43 | 29 | 72 | 109 | 78 | 187 | 39 | 45 | 84 | 12 | 22 | 34 |
| 21 | Müəssisənin iqtisadiyyatı | 106 | 60 | 166 | 72 | 50 | 122 | 14 | 29 | 43 | 18 | 16 | 34 |
| 22 | Mühasibat uçotu və audit | 128 | 67 | 195 | 189 | 169 | 358 | 29 | 60 | 89 | 63 | 73 | 136 |
| 23 | Mülkü müdafiə | 33 | 34 | 67 | 3 | 13 | 16 | 8 | 18 | 26 | 113 | 21 | 134 |
| 24 | Nəzəri və praktiki iqtisadiyyat | 65 | 26 | 91 | 57 | | 57 | 25 | 63 | 88 | 37 | 87 | 124 |
| 25 | Qida məhsullarının texnologiyası | 44 | 18 | 62 | 99 | | 99 | 42 | 9 | 51 | 26 | 26 | 52 |
| 26 | Rəqəmsal iqtisad. və İKT | 224 | 87 | 311 | 84 | 82 | 166 | 41 | 47 | 88 | 40 | 72 | 112 |
| 27 | Riyaziyyat | 255 | 78 | 333 | 827 | 45 | 872 | 14 | 51 | 65 | 1 | 36 | 37 |
| 28 | Rus dili | | | 0 | | | 0 | | 6 | 6 | | 4 | 4 |
| 29 | Sosial sferanın iqtisadiyyatı | 92 | 40 | 132 | 151 | 65 | 216 | 40 | 33 | 73 | 16 | 33 | 49 |
| 30 | Standartlaşdır. və sertifikasiya | 62 | 21 | 83 | 47 | 36 | 83 | 24 | 30 | 54 | 9 | 23 | 32 |

| | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 31 | Statistika və ekonometrika | 166 | 75 | 241 | 118 | 129 | 247 | 23 | 105 | 128 | 13 | 47 | 60 |
| 32 | Texnoloji maşınlar və sahə avadanlıqları | 75 | 26 | 101 | 138 | 59 | 197 | 138 | 122 | 260 | 100 | 30 | 130 |
| 33 | Ticarət və gömrük işinin təşkili | 65 | 35 | 100 | 87 | 39 | 126 | 35 | 31 | 66 | 15 | 27 | 42 |
| 34 | Xarici dillər | 48 | 98 | 146 | 20 | 33 | 53 | 16 | 29 | 45 | 11 | 42 | 53 |
| 35 | SABAH | 32 | 55 | 87 | 65 | 101 | 166 | 119 | 172 | 291 | 142 | 488 | 630 |
| | ***Yekun:*** | ***2529*** | ***1438*** | **3967** | ***3254*** | ***1913*** | **5167** | **1210** | **1846** | **3056** | **1359** | **2268** | **3627** |







Diaqram və qrafiklərdən göründüyü kimi illər ərzində universitet üzrə apelyasiyaların ümümi sayının və əsaslı hesab edilmiş apelyasiya sayının azalması, əsassız hesab edilmiş apelyasiyaların sayının isə artması müşahidə edilir. Qeyd etmək lazımdır ki, apelyasiyaların cəmi sayı və əsaslı apelyasiyaların dinamikasında korrelyasiya əlaqəsi göründüyü halda, əsassız hesab edilmiş apelyasiyaların dinamikası fərqli formada inkişaf edir. Trendin dəyişməsi 2017/2018-ci tədris ilindən başlamışdır. Bu da apelyasiyaların bir hissəsinə tam

diqqətlə baxılmadığına işarə edə bilər və bu istiqamətdə əlavə araşdırmaların və tədbirlərin həyata keçirilməsinə ehtiyacın olduğunu bildirir. Məlumatlarının təhlili onu da göstərir ki, test üsulu ilə keçirilən imtahanlarda da apelyasiyaların sayı artmışdır. Test imtahanları nəticələri ilə bağlı apelyasiyalarda əsaslı hesab edilənlərin xüsusi çəkisi 40%-dən 42%-ə yüksəlmişdir. Bu da testlərin keyfiyyətində dönüş baş vermədiyini göstərir.

Çıxışın əvvəlində qeyd edildiyi kimi bu imtahan sessiyasında nəzarətin təşkili fakültələrə həvalə edilmişdir. Fakültələr tərəfindən nəzarət cədvəlləri tərdtib edilmişdir və nəzarətçilərin iştirakı təmin edilmişdir. Burada bir statistik məlumatı diqqət önünə çəkmək istərdim. Belə ki, imtahan qaydalarının pozulmasına görə tərtib edilmiş protokolların sayı keçən ilə nisbətən 229-dan kəskin enərək 71 olmuşdur. Fikrimizcə, bu həm də nəzarətçilər tərəfindən öz funksiyalarını tam ciddiyə almaması ilə bağlıdır və bu istiqamətdə də ciddi tədbirlərin həyata keçirilməsinə ehtiyac vardır.

Onu da qeyd etmək lazımdır ki, qış imtahan sessiyasının təşkilinə və gedişinə nəzarəti, yarana biləcək şikayətlərin operativ həll edilməsini, imtahanlarla bağlı sual, təklif və narazılıqların araşdırılmasını təmin etmək məqsədi ilə universitetin bütün tədris binalarında “Qərargah”lar yaradılmış, qaynar xətt fəaliyyət göstərmişdir. Tələbə və magistrlar imtahan sessiyası müddətində ehtiyac yarandıqda həm qaynar xəttə, həm də qaynar xəttin “Facebook” sosial şəbəkəsindəki rəsmi səhifəsinə müraciət etmişlər.

İmtahan sessiyası ərzində hər həftənin şənbə günü keçirilən rektorun “Açıq qapı” günlərində qış imtahan sessiyasında yaranan problemlərlə bağlı rəhbərliyə ünvanlanan müraciətlər, daxil olan şikayətlər araşdırılaraq tədbir görülmüşdür. Bununla yanaşı, imtahan prosesinin gedişatının ictimaiyyət nümayəndələri, kütləvi informasiya vasitələri və valideynlər tərəfindən izlənilməsinə geniş şərait yaradılmışdır. Belə ki, universitetdə imtahan sessiyasına nəzarəti həyata keçirmək üçün İctimai Nəzarət Şurası yaradılmışdır. Açıq qapı günlərinin biri tamamilə müstəqil şəkildə İctimai Nəzarət Şurası tərəfindən keçirilmişdir.

Hörmətli Elmi Şura üzvləri!

Qış imtahan sessiyası ərzində UNEC rektorunun göstərişləri əsasında tədrisin keyfiyyətinin artırılması istiqamətində bir sıra tədbirlər də həyata keçirilmişdir. Belə ki, 35 UNEC müəlliminin ingilis dili biliklərinin Britsih Council tərəfindən diaqnostikası həyata keçirilmiş və müvafiq dil bilikləri nümayiş etdirmiş 25 müəllim üçün 3 aylıq ingilis dilində Britaniya Şurası tərəfindən akademik yazı kusrları təşkil edilmişdir. Dərslər hal hazırda davam etməkdədir.

8-12 fevral tarixlərində Quba Tərdis, İstirahət və İdman mərkəzində Praqa Biznes Məktəbinin professoru və Türkiyənin Atılım Universitetinin rektoru tərəfindən UNEC-in 90-dan çox müəlliminə “Tələbə nailiyyətlərinin artırılması yönümlü müasir tədris metodları” mövzusunda təlimlər keçirilmişdir. Bununla bərabər universitetin 25 nəfərdən ibaraət professor-müəllim heyəti Türkiyənin 6 universitetinə təcrübə mübadiləsi məqsədilə ezam olunmuşdur.

Çıxışımın sonunda bildirmək istəyirəm ki, qış imtahan sessiyası ərzində əldə olunmuş məlumatların təhlili tərəfimizdən davam etdiriləcəkdir və tədrisin keyfiyyətinin artırılması üzrə təkliflər hazırlanaraq rəhbərliyə daima təqdim olunacaqdır.

Diqqətinizə görə minnətdaram!